

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 201 (23.843)

29 oktyabr 2021-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Rumıniyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vasile Soarenin etimadnaməsini qəbul edib.

Prezident İlham Əliyev ümid etdiyini bildirib ki, həm ikitərəfli münasibətlər, həm də Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı çərçivəsində perspektivlər daha yaxşı olacaq. Qeyd olunub ki, Azərbaycan-NATO əməkdaşlığı planında Rumıniya çox mühüm rol oynayır. Uzun illər boyu Rumıniya bu əməkdaşlığın möhkəmlənməsi üçün ən fəal rollardan birini oynayıb. Beləliklə, qarşılıqlı münasibətlər həm ikitərəfli formatı, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq formatını əhatə edir. Buna görə də burada perspektivlər çoxdur.

Dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycan bütün başqa istiqamətlər üzrə də Rumıniya ilə əməkdaşlıq üçün həmişə açıq olub. Bu, qarşılıqlı maraqlar əsasında davam etdiriləcək.

Səfir Vasile Soare Prezident İlham Əliyevə təşəkkür edərək bildirib ki, Rumıniyanın Azərbaycanda səfiri təyin edilməsi onun üçün böyük şərəfdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Qırğız Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kayrat Osmonaliyevin etimadnaməsini qəbul edib.

## Aqrar sahənin inkişafı diqqətdə saxlanılır

***Muxtar respublikada aqrar sahənin inkişafı istiqamətində həyata keçirilən tədbirlər, qəbul edilmiş Dövlət proqramlarının uğurlu icrası, əkin dövriyyəsinə yeni torpaqların qatılması və müasir suvarma sistemlərinin qurulması məhsul bolluğuna zəmin yaradıb.***

Aparılmış meliorasiya və irriqasiya tədbirlərinin nəticəsi olaraq təkcə 2014-cü ildən 1 oktyabr 2021-ci il tarixədək muxtar respublikada 201,1 min poqonometr məsafədə sel və daşqınlara qarşı mübarizə tədbirləri, 480,9 min poqonometr məsafədə kollektor-drenaj şəbəkələrinin tikintisi, yenidən qurulması və bərpası, 912,1 min poqonometr məsafədə suvarma kanallarının tikintisi, yenidən qurulması və bərpası, 9015 hektar sahədə torpaqların meliorativ vəziyyətinin və 5829,7 hektar sahədə torpaqların su təminatının yaxşılaşdırılması tədbirləri həyata keçirilmişdir.



Suvarma sistemlərinin yenilənməsi istiqamətində cari ilin ötən dövründə Şahbuz rayonunun Külüs kəndində nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisi başa çatdırılmış, Araz Su Anbarından qidalanan nasos stansiyasının və təzyiqli boru xəttinin, Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində nasos stansiyasının və boru xətlərinin, qapalı suvarma və kollektor-drenaj şəbəkələrinin, Şahbuz rayonunun Külüs, Mahmudoba və Nursu kəndlərinin ərazisində qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmişdir.

Bundan əlavə, Naxçıvan şəhərində, Babək rayonunda Uzunoba Su Anbarı yaxınlığında və Cəhri qəsəbəsi ərazisinin hər birində bir subartezian quyusunun tikintisi başa çatdırılmışdır.

Məhsul istehsalçılarının kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı davamlı olaraq yaxşılaşdırılmış, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 311-i 2021-ci ilin yanvar-sentyabr aylarında olmaqla, ümumilikdə, 3386 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilmişdir. 2021-ci ilin yanvar-sentyabr aylarında 210 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq lizinq yolu ilə icarəyə verilmiş, 65 ədədi nağd yolla satılmışdır. Bu dövrdə məhsul istehsalçıları 7542,3 ton mineral gübrə ilə təmin olunmuşdur.

Aqrar sahənin əhəmiyyətini qeyd edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Kənd təsərrüfatı iqtisadiyyatın lokomotividir. Hər bir ölkədə inkişafın əsas hədəfi ərzaq təhlükəsizliyinin təmin olunmasıdır. Muxtar respublikada aqrar sahədə görülən işlər həyata keçirilən islahatlar da bu məqsədə hesablanmışdır. Qarşıdakı dövrdə də bu sahədəki fəaliyyət davam etdirilməli, məhsuldarlığın artırılması sahəsində elmi-təcrübi tədbirlər görülməlidir".***

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, 2021-ci ilin yanvar-sentyabr aylarında muxtar respublikada 105807 ton dənli və dənli-paxlalılar, 11044 ton dən üçün qarğıdalı, 395 ton dən üçün günəbaxan, 71,8 ton tütün, 54689 ton kartof, 77470,1 ton tərəvəz, 33615 ton bostan məhsulları, 10158,4 ton üzüm, 41299,2 ton meyvə istehsal olunmuşdur. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə dənli və dənli-paxlalılar 5,7, kartof istehsalı 15,2, tərəvəz istehsalı 7,1, üzüm istehsalı 4,4, meyvə istehsalı isə 8,3 faiz artmışdır.



Kənd təsərrüfatının gəlirli sahələrindən biri də meyvəçilikdir. Bu sahənin inkişaf etdirilməsi məqsədilə qəbul olunmuş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın uğurlu icrası muxtar respublika əhalisinin meyvə-tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsini təmin etməklə yanaşı, ixracyönümlü və ekoloji təmiz meyvə-tərəvəz məhsulları istehsalı sahələrinin yaradılmasına yeni imkanlar açmışdır.

Muxtar respublikada heyvandarlığın inkişaf etdirilməsi, əhalinin ət və süd məhsullarına olan tələbatının ödənilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, maldarlıqda qısırlığın ləğv olunması və damazlıq heyvanların əldə olunması məqsədilə 2021-ci ilin yanvar-sentyabr aylarında 10074 baş inək, düyə və camış süni yolla mayalandırılmışdır. Bu dövr ərzində mayalandırılmış inək, düyə və camışlardan 7168 baş sağlam buzov alınmışdır.

Heyvandarlıq məhsullarının artırılması və mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasında süni mayalandırma əhəmiyyətli rol oynayır. Bu istiqamətdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 sentyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Süni Mayalanma Mərkəzi yaradılmış, müasir infrastruktur obyektlərinin tikintisi başa çatdırılaraq istifadəyə verilmişdir.

Əhalinin keyfiyyətli və təhlükəsiz heyvandarlıq məhsulları ilə təminatını qoruyub saxlamaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 17 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı"nın icrası üzrə müvafiq tədbirlər həyata keçirilmiş, Babək Rayon Baytarlıq İdarəsinin yeni binası istifadəyə verilmiş, Kəngərli Rayon Baytarlıq İdarəsinin binasının tikintisi davam etdirilmişdir. Bundan əlavə, Şərur rayonunun Muğancıq-Mehrab, Məmmədsabir, Qarabürc və Şəhriyar, Babək rayonunun Nəcəfəlidizə və Araz, Ordubad rayonunun Vənənd, Nüsnüs, Aşağı Əndəmic və Yuxarı Əndəmic, Culfa rayonunun Camaldın kəndlərində istifadəyə verilən kənd mərkəzlərində baytarlıq məntəqələri üçün müasir iş şəraiti yaradılmışdır.

Mal-qaranın baş sayının artımı və cins tərkibinin yaxşılaşdırılması məhsul istehsalının davamlı artımını təmin etmiş, 2021-ci ilin yanvar-sentyabr aylarında muxtar respublikada diri çəkidə 20118,6 ton ət, 74712,2 ton süd, 89 milyon 771 min 600 ədəd yumurta, 925,2 ton yun istehsal edilmişdir. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 13,5, süd istehsalı 6,4, yumurta istehsalı 19,9, yun istehsalı isə 4,4 faiz artmışdır.

Məhsul istehsalçılarına dövlət tərəfindən verilən subsidiyalarla yanaşı, sahibkarlığa əlavə dəstək məqsədilə təkcə cari ilin yanvar-sentyabr aylarında təsərrüfat subyektlərinə 13 milyon 500 manat məbləğində kreditlərin verilməsi təmin olunmuşdur ki, bu da 2017-ci ilin müvafiq dövründəki göstəricidən 8,3 dəfə çoxdur.

Həyata keçirilən məqsədyönlü tədbirlərin ümumi nəticəsi olaraq 2021-ci ilin yanvar-sentyabr aylarında muxtar respublikada 409 milyon 830 min 300 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 22,6 faiz çoxdur.

Torpaqlardan səmərəli istifadə, meliorasiya və irriqasiya tədbirlərinin davamlılığı, heyvandarlığın dəstəklənməsi və məhsul istehsalçılarına güzəştli kreditlərin verilməsi kənd təsərrüfatının bütün sahələri üzrə məhsul istehsalının artırılmasına şərait yaradacaq.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

*Məlum olduğu kimi, hər il muxtar respublikada payız-qış mövsümünə hazırlıq məsələləri diqqətdə saxlanılır, bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilir və aidiyyəti təşkilatlara müvafiq tapşırıqlar verilir. Həmin tapşırıqların icrası mövsümü uğurla başa vurmağa, əhalinin qış aylarında rahatlığının təmin olunmasına şərait yaradır.*

## Sosial xidmət sahələrində mövsümə hazırlıq işləri davam etdirilir



Bu il də avqust ayının 28-də Naxçıvan Muxtar Respublikasında 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilib. Müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tabeliyində olan bərpa müəssisələrinin, eləcə də Ahıllar Evinin qış mövsümünə hazırlığı ilə bağlı tədbirlər görülməsi, hərbi hissələr üçün isti geyimlərin toxunması işinin davam etdirilməsi barədə tapşırıqlar verilib. Verilmiş tapşırıqların icrası ilə bağlı nazirlikdə yığıncaq keçirilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib, bununla əlaqədar "Tədbirlər planı" tərtib olunub və nazirlik daxilində komissiya yaradılıb.

Hazırda hərbi hissələr üçün isti qış geyimlərinin toxunuşuna 26 nəfər sağlamlıq imkanları məhdud qadın cəlb olunub və bu istiqamətdə işlərə başlanılıb. Qeyd edək ki, ötən il bu məqsədlə sağlamlıq imkanları məhdud qadınlar tərəfindən toxunmuş 4100 cüt yun corab, 920 yun şərf, 3000 yun boyunluq və 1400 yun jilet haqqı ödənilərək təhvil götürülməklə Əlahiddə Ümumqoşun Ordunun dağlıq şəraitdə xidmət edən hərbçilərinin istifadəsinə verilib.

Mövsümə hazırlıqla əlaqədar müvafiq peşə kurslarının təşkili də hazırda diqqət mərkəzindədir. Bu məqsədlə artıq Naxçıvan Regional Peşə Tədris Mərkəzində qazanxana maşinisti peşəsi üzrə təşkil olunan 3 kursa 60, həmçinin qaz avadanlıqlarının təmiri və istismarı üzrə qazpaylayıcı stansiyanın operatoru ixtisasartırma kursuna 10 nəfər cəlb olunub. Qazanxana maşinisti peşəsini bu ay 19 müdavim müvəffəqiyyətlə bitirərək sertifikatla təmin edilib. Hazırda qazanxana maşinisti kursu üzrə 40, qaz avadanlıqlarının təmiri və istismarı üzrə qazpaylayıcı stansiyanın operatoru ixtisasartırma kursu üzrə isə 10 nəfər olmaqla, ümumilikdə, 50 müdavimin iştirakı ilə sözügedən kurslar davam etdirilir. Əlavə edək ki, ötən il bu məqsədlə Naxçıvan Regional Peşə Tədris Mərkəzində qazanxana maşinisti peşəsi üzrə 8 kursa 140, Penitensiar Xidmətin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində qazanxana maşinisti kursuna 12, qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər ixtisasartırma kursuna isə 21 nəfər cəlb olunub.

Verilmiş tapşırıqlara uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Şahbuz şəhərində fəaliyyət göstərən Ahıllar Evinin təminatına diqqət artırılıb, müəssisədə sakinlərin rahat yaşaması üçün hərtərəfli şərait yaradılıb. Həmçinin sağlamlıq imkanları məhdud insanlara xidmət edən bərpa mərkəzlərində müvafiq kateqoriyadan olan şəxslərin reabilitasiyası istiqamətində hazırlıq işləri görülüb. Eyni tədbirlər Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin Şərur və Ordubad rayonlarında yerləşən defektoloji bölmələrində də həyata keçirilib.

Əlavə edək ki, görülən bu işlərlə yanaşı, sosial xidmət göstərilən tənha ahılların geyim və mövsümi ləvazimatlarla, sosial qayğıya ehtiyacı olan məktəblilərin isə qış geyimləri ilə təmin edilməsi də nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***



# Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı sarsılmazdır



*2021-ci il oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin yaranmasının 98-ci ildönümü tamam olur.*

1920-ci ilin avqustunda imzalanmış ədalətsiz Sevr sazişi Türkiyənin dövlətçiliyini və gələcəyini təhlükə altında qoymuşdu. Türk xalqı bu ədalətsizliklə barışmayaraq 1919-cu ildə ölkədə milli azadlıq mübarizəsinə başladı. Mustafa Kamal Atatürkün rəhbərliyi ilə qurtuluş savaşı aparan türk ordusu ölkəni işğal etmiş düşmənə sarsıdıcı zərbə vuraraq 1922-ci ilin avqustunda böyük zəfər qazandı. Bu zəfər türk xalqının 1919-cu ildə başladığı istiqlal mücadiləsinin zirvəsi oldu və 1923-cü il oktyabrın 29-da müstəqil Türkiyə Respublikası yaradıldı.

Bu gün güclü iqtisadiyyatı, qüdrətli ordusu, demokratiya və hüquqa bağlılığı ilə Türkiyə Respublikası beynəlxalq aləmdə söz sahibi ölkələrdən biridir. Tarixboyu böyük güclərin yaratdıqları çətinliklərə baxmayaraq, Türkiyə və Azərbaycan xalqları daim bir-birinin yanında olmuşlar. Hər iki dövlətin müstəqillik tarixi ağır və qanlı müharibələrdən keçsə də, ümummilli lider Heydər Əliyevin və Mustafa Kamal Atatürkün güclü siyasi iradəsi, qətiyyəti, xalqı irəliyə aparmaq əzmi məxsus olduqları xalqı və dövləti yaşatmış, bu gün də yaşadır. Ulu öndər Heydər Əliyev demişdir: ***"Türkiyə və Azərbaycan xalqlarının tarixi birliyi və sarsılmaz dostluğu bizim ən böyük sərvətimizdir. Belə bir möhkəm təməl üzərində qurulmuş dövlətlərarası münasibətlərimizdə bir-birimizə inam və etibarımız, qarşılıqlı dəstəyimiz böyük məmnunluq doğurur".***

Ümummilli liderimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə – 1992-ci il martın 24-də Türkiyəyə ilk rəsmi səfəri zamanı "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu" imzalanmışdır. Bu səfərin nəticələri uğurlu olmuş, 1992-ci ilin 28 mayında Sədərək-Dilucu körpüsü istifadəyə verilmiş, dahi şəxsiyyət ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra isə Azərbaycan-Türkiyə əlaqələri bütün istiqamətlərdə sürətlə inkişaf etmişdir.

Bu gün Azərbaycan-Türkiyə əməkdaşlığı ölkə prezidentlərinin iradəsinə uyğun olaraq yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Ölkələrimiz regionda və beynəlxalq aləmdə baş verən bütün hadisə və proseslərə münasibətdə eyni mövqedən çıxış edirlər. Qarşılıqlı səfərlər ikitərəfli əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynayır, bütün sahələrdə əlaqələr uğurla inkişaf edir. Ötən il 44 günlük Vətən müharibəsində Türkiyənin göstərdiyi siyasi dəstək Azərbaycanın haqq işinin qazanılmasında böyük rol oynadı. İkinci Qarabağ müharibəsindəki tarixi Qələbə qardaş ölkələrin həm də hərbi-siyasi əməkdaşlığına, iqtisadi əlaqələrinə və diplomatik gücünə, Azərbaycan-Türkiyə amilinin möhkəmlənməsinə töhfə verdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi, ***"Bu, bizim müştərək qələbəmizdir, Türkiyə-Azərbaycan birliyinin təsdiqidir. Bu gün bu birlik tarixdə, bəlkə də, ən yüksək səviyyədədir".***

Qarşılıqlı əməkdaşlığın ən yüksək göstəricisinin nəticəsidir ki, 2021-ci il iyun ayının 15-də Şuşada Azərbaycan və Türkiyə prezidentləri 1921-ci il 13 oktyabr tarixli Qars müqaviləsinə sadiq olduqlarını bildirərək "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzaladılar. Bəyannamə ölkələrimiz arasındakı münasibətlərin bütün müstəvilərdə, o cümlədən siyasi, iqtisadi və humanitar sahələrdə davamlı inkişafını təmin edəcəkdir. Eyni zamanda Bəyannamədə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapmışdır. Bununla yanaşı, tərəfdaşlığın əhəmiyyətini və ölkələrimizin qüdrətini artıran hərbi sənaye sahəsində əməkdaşlıq məsələləri də Bəyannamədə qeyd olunmuşdur. Sənəddə Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında dəhlizin açılması və bunun davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisi nəqliyyat-kommunikasiyalarının intensivləşməsinə töhfə kimi dəyərləndirilmişdir.

Bu gün ölkələrimiz arasındakı əlaqələrin inkişafında Naxçıvan Muxtar Respublikasının mühüm yeri vardır. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin yaxın bölgələri arasında iqtisadi-ticarət, təhsil, səhiyyə, turizm, mədəniyyət, ordu quruculuğu və nəqliyyat sahələrində əlaqələr uğurla inkişaf etdirilir. 2019-cu il avqustun 15-də Türkiyə ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa hava dəhlizi açılmışdır. Naxçıvan Muxtar Respublikasında Türkiyəyə məxsus sahibkarlıq subyektləri fəaliyyət göstərir. Muxtar respublikanın ali təhsil ocaqlarında yüzlərlə Türkiyə vətəndaşı müxtəlif ixtisaslar üzrə təhsil alırlar. "Erasmus+" və "Mövlana" proqramları çərçivəsində Naxçıvan Dövlət Universiteti 60-dan çox Türkiyə universiteti ilə tələbə və müəllim mobilliyi sahəsində əməkdaşlıq müqaviləsi imzalamışdır. Ordu quruculuğu sahəsində də əməkdaşlıq tədbirləri yeni mərhələyə qədəm qoymuşdur. Artıq ənənə halını almış birgə hərbi təlimlər bunun əyani ifadəsidir.

Azərbaycan-Türkiyə əlaqələri davamlıdır. İkitərəfli münasibətlərimiz bundan sonra da uğurla inkişaf edəcəkdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Bu gün Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətləri regionda əmin-amanlığın və sabitliyin qorunmasına mühüm töhfədir. Qarşılıqlı faydalı əməkdaşlıq, həyata keçirilən birgə layihələr strateji tərəfdaşlığımızı daha da möhkəmləndirir".***

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

*Oktyabrın 28-də VI respublika fənn müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilmişdir.*

## 55 şagird respublika fənn müsabiqəsinin qalibi olub



Tədbirdə təhsil naziri Rəhman Məmmədov muxtar respublikada təhsilə göstərilən dövlət qayğısından danışaraq bildirmişdir ki, yeni məktəb binalarının tikilməsi və təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, məktəblərin kompüter və elektron lövhələrlə təchiz edilməsi, laboratoriya və STEAM kabinələrinin yaradılması təhsilin səviyyəsinin yüksəlməsinə müsbət təsir göstərmişdir.

Həyata keçirilən tədbirlər sayəsində şagirdlərimiz milli ruhda tərbiyə olunur, hərtərəfli təhsil alır, yüksək diqqət və qayğı əhatəsində əsl vətəndaş kimi formalaşırlar. Onlar milli dəyərlərimizə, adət-ənənələrimizə, tariximizə hörmətlə yanaşan, yüksək intellektual səviyyəyə malik vətənpərvər gənclər kimi yetişirlər. Yaradılan şərait nəticəsində muxtar respublikada istedadlı və sağlam nəsil yetişir. İstedadlı uşaqların adları Naxçıvan Muxtar Respublikası gənc istedadlarının "Qızıl kitabı"na yazılır, onlar Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülürlər.

Qeyd olunub ki, ümumtəhsil məktəblərində istedadlı şagirdləri üzə çıxarmaq, onlardakı tədqiqatçılıq qabiliyyətini inkişaf etdirmək üçün müxtəlif metodlar və innovativ layihələr tətbiq olunur, bilik və yaradıcılıq müsabiqələri, sərgilər, idman yarışları keçirilir.

Belə tədbirlərdən biri də fənn müsabiqələridir. Şagirdlərin özünəinam hissinin formalaşdırılması, ayrı-ayrı fənlər üzrə bilik və bacarıqlarının aşkara çıxarılması, onların Beynəlxalq olimpiadalara hazırlanması, təhsildə sağlam rəqabət mühitinin yaradılması istiqamətində əhəmiyyəti nəzərə alınaraq ötən tədris ilində respublika fənn müsabiqəsi keçirilmiş, 55 şagird müsabiqənin qalibi olmuşdur.

Təhsil naziri qalibləri təbrik etmiş, onlara təhsildə uğurlar arzulamışdır. Sonra Təhsil Nazirliyinin şöbə müdiri Abdulla Əsgərov 2021-2022-ci tədris ilində keçiriləcək olimpiada və müsabiqələr haqqında məlumat vermişdir.

Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbin şagirdi Əjdər Pənahli çıxış edərək yaxşı təhsil almaları üçün yaradılan şəraitə və göstərilən dövlət qayğısına görə minnətdarlığını bildirmişdir.

Tədbirin sonunda I-III yerlərin qaliblərinə medal və diplomlar, IV yerin qaliblərinə isə sertifikatlar təqdim edilmişdir. Qeyd edək ki, aprelin 26-27-də məktəblilərin respublika fənn müsabiqəsinin şəhər və rayon, mayın 25-də isə final mərhələsi keçirilmişdir. Müsabiqənin şəhər və rayon mərhələsində 470, final mərhələsində isə 147 şagird iştirak etmişdir. Müsabiqənin nəticələri uğurlu olmuş, şagirdlərdən 6-sı qızıl, 12-si gümüş, 18-i bürünc medala layiq görülmüş, 19-u isə IV yerin qalibi olmuşdur.

***Naxçıvan Muxtar Respublikası***
***Təhsil Nazirliyinin mətbuat xidməti***

## Tələbələr üçün seminar keçirilib



*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin hamiliyinə verilən Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsinin Dövlət və bələdiyyə idarəetməsi ixtisası üzrə tələbələri üçün "Dövlət və bələdiyyə orqanlarının qarşılıqlı fəaliyyətində səlahiyyət bölgüsü" mövzusunda seminar təşkil edilib.*

Qeyd olunub ki, Ali Məclis Sədrinin müvafiq sərəncamları muxtar respublikanın ali və orta ixtisas təhsili məktəblərində təhsil alanların gələcəkdə ixtisaslı kadr kimi formalaşmasına göstərilən diqqət və qayğının bariz nümunəsidir. Sərəncamın icrası istiqamətində nazirliyin hamiliyə verilən dövlət və bələdiyyə idarəetməsi ixtisası üzrə təhsil alan tələbələrlə mütəmadi görüşlər keçirilir, onlara nazirliyin və bələdiyyə orqanlarının gündəlik iş prosesi ilə yerində tanış olmaları üçün şərait yaradılır. Bu da təhsil alanların gələcəkdə ixtisaslı kadr kimi formalaşmasına, yüksək intellektual səviyyəyə və praktik iş qabiliyyətinə yiyələnməsinə rəvac verir.

Çıxış edənlər dövlət və bələdiyyə orqanlarının qarşılıqlı fəaliyyətində səlahiyyət bölgüsü barədə geniş məlumat veriblər. Vurğulanıb ki, dövlət hakimiyyəti orqanları ilə yerli özünüidarəetmə orqanları arasında fəaliyyətin öyrənilməsi nəzəri və praktik əhəmiyyətə malikdir. Hər iki orqanın səlahiyyətlərinin qanunla necə tənzimlənməsi barədə tələbələrə ətraflı məlumat verilib.

Seminarda tələbələri maraqlandıran suallara aydınlıq gətirilib.

***Naxçıvan Muxtar Respublikası***
***Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Qaliblər mükafatlandırılıb

*Dünən Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunda Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən gənclər və digər yaş qruplarından olan yaradıcı və həvəskar şəxslər arasında "Ailə dəyərlərimiz film və fotolarda" mövzusunda VI muxtar respublika yaradıcılıq müsabiqəsi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Gənclər Fondu və Rəssamlar Birliyi tərəfindən sağlamlıq imkanları məhdud uşaqlar, dərnək üzvləri, orta ixtisas və ali təhsil müəssisələrinin tələbələri və istedadlı gənclər arasında "İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik" mövzusunda VIII muxtar respublika yazı, dekorativ-tətbiqi sənət və rəsm müsabiqəsinin qalibləri mükafatlandırılıb.*

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova tədbiri giriş sözü ilə açaraq ölkəmizdə, eləcə də muxtar respublikamızda həyata keçirilən dövlət ailə siyasətindən ətraflı bəhs edib. Bildirilib ki, aparılan məqsədyönlü siyasət, bütövlükdə, muxtar respublikada ailə institutunun inkişafına öz müsbət təsirini göstərmiş, milli adət-ənənələrimizə və mənəvi dəyərlərimizə əsaslanan Naxçıvan ailəsi möhkəm, özüllü ailə modeli kimi cəmiyyətdə öz mövqeyini qoruyub saxlamışdır. Muxtar respublikada ailələrin sosial baxımdan güclü olması üçün əhalinin məşğulluq səviyyəsi yüksəldilmiş, ailələrin ildən-ilə gəlirləri artmış, ailə dəyərlərimiz geniş təbliğ olunmuşdur.

Komitə sədri çıxışında sosial qayğıya ehtiyacı olan ailələrin, şəhid, qazi ailələrinin sosial problemlərinin öyrənilməsi və həlli ilə əlaqədar, xüsusi qayğıya ehtiyacı olan ailələrin özünüməşğulluq proqramına cəlb edilməsi, gənc ailələrin mənzillə təmin olunması istiqamətində görülmüş genişmiqyaslı tədbirlər haqqında da ətraflı məlumat verib.

Ramilə Seyidova muxtar respublikada ailələrə yaradılan şəraitə və göstərilən hərtərəfli qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığını bildirib.

Diqqətə çatdırılıb ki, müsabiqələrin keçirilməsində məqsəd gənc ailələrdə ailə dəyərlərinin qorunub saxlanılmasını təbliğ etmək, ailə dəyərlərimizi film və fotolara köçürməklə yaşatmaq, vətənpərvərlik ruhunu, milli adət-ənənələrimizi ictimaiyyətə, gənclərə təqdim etmək, gənclərdə və həvəskar şəxslərdə yaradıcılıq qabiliyyətini aşkara çıxarmaq və bədii zövqü inkişaf etdirməkdir. Bildirilib ki, "İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik" mövzusunda VIII muxtar respublika yazı, dekorativ-tətbiqi sənət və rəsm müsabiqəsinə 34 müəllifin 41 rəsm, 40 müəllifin 40 inşa yazı, 5 müəllifin 5 dekorativ işi olmaqla, ümumilikdə, 86 iş təqdim olunub. Gənclər və istedadlı şəxslər arasında keçirilən yaradıcılıq müsabiqəsində "Ailə dəyərlərimiz film və fotolarda"



mövzusunda VI muxtar respublika yaradıcılıq müsabiqəsinə isə 49 foto və 5 film olmaqla, ümumilikdə, 54 film və foto təqdim edilib. Gənclər və həvəskar yaradıcı insanlar arasında keçirilən bu müsabiqələrə təqdim olunan işlərin hər birində ailə dəyərlərimizin, adət-ənənələrimizin, ailə birliyinin qorunub saxlanılması, ailədə sülh və dözümlülük ənənəsinin təbliğ edilməsi və milli vətənpərvərlik ruhunda gənclərin yetişməsi öz əksini tapmışdır.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev muxtar respublikada həyata keçirilən uğurlu gənclər siyasətindən bəhs etmiş, milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin yaşadılaraq gənc nəsillərə çatdırılması istiqamətində görülən işlərin əhəmiyyətinə toxunmuşdur.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri Asəf Orucov çıxış edərək keçirilən müsabiqənin gənclər üçün əhəmiyyətindən, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin əməkdaşı, rəssam Nizami Alıyev belə tədbirlərin təşkilinin bugünkü gənclərimizin milli ruhda yetişməsi, bacarıq və istedadlarının üzə çıxarılması üçün vacib olduğunu bildirmişlər.

"İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik" mövzusunda VIII muxtar respublika yazı, dekorativ-tətbiqi sənət və rəsm müsabiqəsində qalib olmuş istedadlı şəxslər diplom və hədiyyələrlə təltif olunmuşlar.

"Ailə dəyərlərimiz film və fotolarda" mövzusunda VI muxtar respublika yaradıcılıq müsabiqəsində qalib olmuş istedadlı şəxslərdən 2 nəfər I yer olmaqla, hər birinə 200 manat, 2 nəfər II yer olmaqla, hər birinə 150 manat, 2 nəfər III yer olmaqla, hər birinə 100 manat pul mükafatı, 8 nəfər isə həvəsləndirici yer olmaqla, hər birinə hədiyyə və diplom təqdim olunub.

Sonda "Ailə dəyərlərimiz film və fotolarda" mövzusunda VI muxtar respublika yaradıcılıq müsabiqəsinə təqdim edilmiş, "Ən yaxşı film" nominasiyasına layiq görülmüş film izlənilib və müsabiqəyə təqdim olunmuş fotolardan ibarət videoçarxa və "İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik" mövzusunda VIII muxtar respublika yazı, dekorativ-tətbiqi sənət və rəsm müsabiqəsinə təqdim edilmiş rəsm və əl işlərindən ibarət sərgiyə baxış olub.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

“Şərq qapısı” – 100

# Müstəqillik illərində muxtar respublikada təhsil inkişafın ən yüksək zirvəsinə çatıb

*(“Şərq qapısı” qəzetinin materialları əsasında)*

***“Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir”****, – deyən ümummilli liderimiz Heydər Əliyevin siyasətinin uğurla həyata keçirildiyi muxtar respublikamızda müstəqillik illərində təhsil sahəsinin dünəni və bu gününü öyrənmək üçün 100 yaşlı “Şərq qapısı” qəzetinin 1991-2021-ci illəri əhatə edən arxiv materiallarına nəzər saldıq...*



2 mart 1991-ci il. “Problemlər, qayğılar... Nəhəcirdə məktəb binasının tikintisi planlaşdırılıb. Lakin onun sənədləşdirilməsinin ləngiməsi adamları razı salmır. Çünki köhnə məktəb binası tələbatı ödəmir”.

6 may 1991-ci il. “Tədrisdə geriliyə səbəb nədir...” : “Təhsil və tərbiyənin inkişafı naminə dövrün və zamanın tələblərindən irəli gələn pedaqoji ideya, təlim nəzəriyyəsi o vaxt özünü doğruldur ki, təhsilin inkişafı üçün yuxarı orqanlar, bütün ictimaiyyət onun konkret həlli üçün məsuliyyət daşısın. Nəticədə, şagirdlərin o gün üçün əldə etdikləri bilik dairəsində ümumtəhsil nailiyyətləri formasında ortaya çıxsın”.

14 avqust 1991-ci il. “Dönüş yaratmalı...” : “Yeni dərs ilinə ayrı-ayrı rayonlarda, şəhərlərdə, kənd və qəsəbələrdə xeyli iş görülsə də, vəziyyəti qənaətbəxş hesab etmək olmaz. Hələ də ümumtəhsil məktəblərinin 110-u uyğunlaşdırılmamış binalarda yerləşir. Məktəbdənkənar müəssisələrin 30-nun müstəqil binası, 115 məktəbin istilik sistemi, onlarca məktəbin isə kanalizasiya xətti, idman zalı, bufet-aşxanası yoxdur. Məsuliyyətsizliyin nəticəsidir ki, 22 buraxılış obyektindən cəmi ikisində tikinti-quraşdırma işləri başa çatdırılmışdır. Məktəblərdə istilik sisteminin qaydaya salınması, lazım olacaq yanacağın alınması sahəsində indidən ciddi dönüş yaradılmalıdır”.

5 yanvar 1994-cü il. “Qışın çətinlikləri... “Müəllimlərimizin təşəbbüsü” : “Kəndimizdəki məktəbin binası müasir tikilidir. Məktəbin özünün qazanxanası olsa da, hər il onu işlətmək, sinifləri qızdırmaq problem olub. Ümumiyyətlə, qış günlərində çox vaxt həftələrlə məktəb bağlanır. Pedaqoji kollektivimizin üzvləri öz hesablarına topladıqları vəsaitlə məktəbə 20 odun peçi almış və onu siniflərdə qurmuşlar”.

31 mart 1994-cü il. “Gələcəyimiz təhlükədədir...” : “Təəssüf hissi ilə demək lazımdır ki, bu gün uşaqlara, yeniyetmə və gənclərə dövlət səviyyəsində qayğı və diqqət unudulub. Artıq 3-4 ildir ki, uşaq tərbiyə müəssisələrində balacaların istirahət və tərbiyəsi üçün lazımi şərait yoxdur. İstilik və işığın olmaması üzündən bağçalar tez-tez bağlanır. Həmkarlarımdan birinin dediyi kimi, 20-25 ildən sonra nə bu xalqın istedadı, bacarıqlı həkimi olacaq, nə də ki müəllimi”.

29 noyabr 1995-ci il. “İnternat məktəbində bir gün...” : “Xalqın qəhrəman oğlu Əkbər Ağayevin adını daşıyan Ordubad internat məktəbinin əsaslı təmirə ehtiyacı vardır. Dərsliklə təminat yarıtmazdır. Müəllimlərin və tərbiyəçilərin əməkhaqqısı aşağıdır. İndiki həyat səviyyəsi ilə əlaqədar müəllimin yaşayış tərzi xoşagələn vəziyyətdə deyil. İnternat məktəbinə və onun kollektivinə diqqət və qayğı artırılmalıdır. Bu zamanın tələbidir...”

Muxtar respublikanın blokadada olması, keçmiş iqtidar dövründə Azərbaycanda hökm sürən hərc-mərclik 90-cı illərin əvvəllərində digər sahələr kimi, təhsilin də inkişafını ləngitmişdir. Ümummilli liderimiz Heydər Əliyevin müdrik siyasəti nəticəsində sabitlik yaranmış, 1995-ci ildən etibarən məktəb tikintisi, bu sahədə əsaslı yenidənqurma işləri ardıcıl olaraq davam etdirilmişdir. Qəzetin 1996-cı il 1 may tarixli nömrəsində “Təhsilə qayğı artırılır” başlıqlı məqalədə təhsil işçilərinin müşavirəsində də qeyd edildiyi kimi 1995-ci ilin sonlarında Azərbaycan Milli Məclisinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən parlament seçkilərindən sonra muxtar respublikanın ali qanunvericilik orqanının yeni tərkibdə fəaliyyətə başlamasından sonra muxtar respublikada ab-hava dəyişmiş, ictimai-siyasi iqlim saflaşmış, hər bir sahədə olduğu kimi, təhsil sahəsində də dönüş yaranmışdır.

Blokada vəziyyətində yeni məktəb binaları tikmək, təhsilin inkişafına çalışmaq mübarizə, qətiyyət, iradə və güc tələb edirdi. “Çətin illərin buraxılış obyektləri” yarımbaşlıqdakı məqalədə oxuyuruq ki, 24 avqust 1996-cı ildə yeni dərs ilində Cəhridə 504 yerlik yeni məktəb binasının istifadəyə verilməsi zamanı Ali Məclisin Sədri demişdir: ***“Mən muxtar respublikaya rəhbərliyə başlayarkən öz çıxışımda demişəm ki, Azərbaycanın bu ağır dövründə iki sahəyə diqqəti yönəltmək lazımdır. Orduya və təhsilə. Bu iki sahəni daim diqqət mərkəzində saxlayırıq. Belə olmasa, bizim gələcəyimiz şübhə altında qalar”.*** Bu gün istər ordu quruculuğu, istərsə də təhsil sahəsində əldə edilən nailiyyətlər göz qabağındadır. Bütün bunların fövqündə ümummilli liderimiz Heydər Əliyevin ideyalarının sədaqətlə, layiqli şəkildə davam etdirilməsi dayanır. Bu səbəbdən muxtar respublikamızda ulu öndərin irsinin öyrənilməsi daim diqqətdə saxlanılmış, bunlar “Şərq qapısı”nın səhifələrində işıqlandırılmışdır. Ulu öndər Heydər Əliyevin anadan olmasının 74-cü ildönümü münasibətilə 1997-ci il aprelin 5-də Naxçıvan Dövlət Universitetində “Heydər Əliyev Universiteti” təsis edilmiş, həmin il mayın 7-də “Heydər Əliyev lektoriyasının ilk məşğələsi” keçirilmiş, 2004-cü il sentyabrın 3-də Naxçıvan şəhərində Heydər Əliyev adına orta məktəbin açılış mərasimi keçirilmiş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu mərasimdə iştirak etmişdir.

Vəziyyətin ağır olmasına baxmayaraq, 1997-ci il bütün sahələrdə dönüş ili elan edilmiş, muxtar respublikanın bir çox yerlərində məktəb binaları tikilib istifadəyə verilmişdir. Təhsilin digər sahələri kimi, ali təhsil müəssisələrinin inkişafı üçün də geniş imkanlar açılmışdır. O vaxt Naxçıvan şəhərində fəaliyyət göstərən yeganə universitet Naxçıvan Dövlət Universiteti olduğu üçün ona xüsusi qayğı göstərilmişdir. 30 yaşını qeyd edən universitetə ulu öndər Heydər Əliyev 1997-ci il 29 oktyabr tarixli təbrik məktubu göndərmiş, məktubda blokada şəraitində yaşayan Naxçıvanın dövlət müstəqilliyimizin əldə olunması və möhkəmləndirilməsi uğrunda mübarizəsində universitetin göstərdiyi xidmətlər, xüsusilə qeyd olunmuşdur. Həmin il noyabrın 5-də qəzetdə dərc edilmiş “30 yaşlı universitet” adlı məqalədə universitetin 30 yaşının muxtar respublikada geniş qeyd olunduğu yazılır. Ali təhsil ocağına göstərilən qayğının daha bir ifadəsi də 1999-cu ilin 11 oktyabrında muxtar respublikamızın 75 illik yubileyi ərəfəsində Naxçıvan Dövlət Universitetinin yeni tədris korpusunun təntənəli açılışında ümummilli liderimiz Heydər Əliyevin də iştirak etməsidir. Ulu öndər həmin tədbirdəki çıxışında demişdir: ***İndi blokada şəraitində yaşayan, yolu olmayan, Bakı ilə ancaq təyyarə vasitəsilə əlaqə saxlayan Naxçıvan belə bir binanın tikilib başa çatmasını təmin edib və burada yeni bir tədris korpusunu yaradıbdır. Bu, böyük hadisədir...”*** Qeyd edək ki, bu gün 50-dən artıq yaşı olan universitet dünyanın bir sıra ölkələrindən tələbə qəbulunu həyata keçirir, bir çox xarici universitetlərlə elmi, təhsil və başqa əlaqələri vardır. Qəzetdə 2018-ci il yanvarın 18-də dərc edilmiş “Naxçıvan Dövlət Universitetinin Distant Təhsil Mərkəzi istifadəyə verilmişdir” adlı rəsmi xəbərdə Ali Məclisin Sədri yanvarın 17-də istifadəyə verilən mərkəzin məsafədən təhsilin mühüm forması kimi ali təhsil ocağının dünya təhsil sisteminə inteqrasiyasını sürətləndirəcəyini qeyd etmişdir.

Təhsilə qayğının davamı olaraq ümummilli liderimiz Heydər Əliyevin 2000-ci il 13 iyun tarixli Fərmanına əsasən Naxçıvan Politexnik Texnikumunun bazasında Azərbaycan Müəllimlər İnstitutunun Naxçıvan filialı yaradılmış, 2003-cü il avqustun 26-da isə filial müstəqil instituta çevrilərək Naxçıvan Müəllimlər İnstitutu kimi fəaliyyətə başlamışdır. Prezident cənab İlham Əliyevin iştirakı ilə 2018-ci il mayın 16-da Naxçıvan Müəllimlər İnstitutunun yeni binasının açılışı olmuşdur. Hazırda ali təhsil ocağı ixtisaslı pedaqoji kadrların hazırlanmasında mühüm rol oynayır, muxtar respublikamıza peşəkar müəllim heyəti qazandırır.

Naxçıvan şəhərində daha bir ali təhsil ocağı olan “Naxçıvan” Universiteti 1999-cu ildən fəaliyyətə başlayıb. Universitet zəngin maddi-texniki bazaya malik olmaqla, dünyanın 50-dən çox ali təhsil müəssisəsi ilə əməkdaşlıq edir. Beynəlxalq təhsil təşkilatının üzvü kimi proqramlarda və layihələrdə uğurla iştirak edir.

Diyarımızda təhsilin mühüm bir sahəsini təşkil edən hərbi təhsil sahəsinin inkişafı da daim diqqət mərkəzində saxlanılmışdır. 1999-cu ilin 13 oktyabrında Naxçıvan şəhərində Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının ümummilli liderimiz Heydər Əliyevin iştirakı ilə təntənəli açılışı olmuşdur. Ulu öndər muxtar respublikanın yerli hakimiyyətinin qısa zamanda Naxçıvanda belə bir bina hazırlamasını təqdirəlayiq hadisə kimi yüksək qiymətləndirmiş, 2002-ci il iyunun 17-də Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialında kursantlarla görüşmüşdür. Sevindiricidir ki, bu gün ulu öndərimiz Heydər Əliyevin adını daşıyan hərbi liseydə təhsilli, peşəkar gənclər hazırlanır, onlar Azərbaycan Ordusunun sırasında layiqincə xidmət edirlər. Ötən il şanlı Vətən müharibəsində Qələbənin qazanılmasında bu liseyin məzunlarının göstərdiyi qəhrəmanlıq, şücaət buna bariz nümunədir.

Muxtar respublikamızda təhsilin digər sahəsi kimi, tibbi təhsilə də diqqətlə yanaşılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri “Naxçıvan Tibb məktəbinin 70 illik yubileyinin keçirilməsi və maddi-texniki bazasının yaxşılaşdırılması haqqında” 2001-ci il 17 may tarixli Sərəncam imzalamış, həmin il Naxçıvan Tibb məktəbinin 70 illik yubileyi yeni binada qeyd olunmuş, 2018-ci il sentyabrın 13-də Naxçıvan Tibb Kollecinin yeni binası istifadəyə verilmişdir.

Diyarımızda musiqi təhsilinin inkişafı da daim ön planda saxlanılıb. 1974-cü ildə ümummilli liderimiz Heydər Əliyevin tapşırığı və təşəbbüsü ilə yaradılan Naxçıvan Musiqi Kolleci, 2013-cü il yanvarın 24-də Naxçıvan şəhərində yeni binası Ali Məclis Sədrinin iştirakı ilə istifadəyə verilmiş Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbi və digər musiqi məktəbləri milli musiqimizin yaşadılması və musiqiçi kadrların hazırlanmasında mühüm rol oynayır. Muxtar respublikamızda qızların təhsili də daim diqqət mərkəzində saxlanılır. 1992-ci ildə Xanım Qızlar Pansionu kimi yaradılan 2004-cü ildən “Naxçıvan Qızlar Liseyi” adı ilə fəaliyyətini davam etdirən lisey 2011-ci ildə yenidən əsaslı təmir olunaraq müasir infrastruktura zənginləşdirilmişdir. Bu gün ali təhsil müəssisələrinə qəbul imtahanlarında bu liseyin məzunları topladıqları yüksək ballarla seçilirlər.

Ölkə Prezidenti cənab İlham Əliyev muxtar respublikamıza dəfələrlə səfər etmişdir. Yuxarıda internat məktəb binasının yararsız olmasından danışırdıqsa, artıq 2006-cı ilin dekabrın 22-də Ordubad internat məktəb kompleksinin açılışı olmuş, Prezident cənab İlham Əliyev burada iştirak etmiş və çıxış edərək demişdir: ***“Çox gözəl məktəbdir. Həm oxumaq üçün, həm də yaşamaq, istirahət etmək, idmanla məşğul olmaq üçün hər cür şərait var. Ona görə əminəm ki, uşaqlar burada çox yaxşı oxuyacaqlar, bilikli olacaqlar və böyüyəndə doğma Vətənimizin hərtərəfli inkişafına öz dəstəyini verəcəklər... Mən çox məmnunam ki, muxtar respublika rəhbərliyi, Vasif Talıbov Heydər Əliyev siyasətini burada uğurla icra edir, onu davam etdirir və Naxçıvanın möhkəmlənməsinə öz töhfəsini verir...”***

Muxtar respublikamızda sağlamlıq imkanları məhdud şəxslərin təhsili həmişə diqqət mərkəzində saxlanılmış, Ali Məclis Sədrinin “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2014-cü il 20 iyun tarixli Sərəncamına uyğun olaraq Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi yaradılmışdır. Həmçinin cari ildə qəbul edilən “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 15 mart tarixli Sərəncamı bu qəbildən olan uşaqların təhsil almasına, onların cəmiyyətin aktiv üzvünə çevrilməsinə, sosiallaşmasına əlverişli imkanlar yaradır. Muxtar respublikamızda təhsil sahəsində vacib tədbirlərdən biri hamiliklə bağlıdır. “Şərq qapısı” qəzetində gedən silsilə məqalələrdən də aydın olur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu sahədə müvafiq sərəncamları gənc mütəxəssislərin hazırlanmasında, onların praktik peşə biliklərinə yiyələnməsində vacib rol oynamışdır. Diyarımızda məktəbdənkənar təhsil diqqətdə saxlanılmış, uşaq, yeniyetmə və gənclərin istedadlarının üzə çıxarılmasında, bilik və bacarıqlarının artırılmasında, dünyagörüşlərinin inkişafında, asudə vaxtlarının səmərəli təşkilində innovativ dərnəklər böyük rol oynamışdır. “Oxunması zəruri olan kitablar haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təhsil müəssisələrində, kitabxanalarda yaradılan oxunması zəruri olan kitab guşələri kitab oxumağa olan marağı artırmışdır. 2020-2021-ci tədris ilində bir sıra məktəblərdə STEAM yeni tədris metodunun tətbiqinə başlanılmışdır. 2020-ci il noyabrın 12-də Şərur rayon Qarabürc kənd məktəbində ilk dəfə olaraq STEAM kabinəsi istifadəyə verilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2021-ci il iyunun 7-də “Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında” Sərəncam imzalamışdır. Muxtar respublikada təhsilin dünya standartlarına cavab verəcək səviyyədə inkişafı istiqamətində aparılan bu islahatların mahiyyəti “Şərq qapısı” qəzetində müntəzəm işıqlandırılmışdır.

Ali Məclis Sədrinin hər il orta məktəbi bitirmiş və ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüş keçirməsi, ali məktəblərə daxil olan gənclər “Qızıl kitab”ın təsis olunması təhsilə göstərilən qayğının bariz nümunələridir. Məhz bu diqqət və qayğı hesabına muxtar respublikamızda bütün təhsil pillələri üzrə yeni texnologiyalara əsaslanan tədris infrastrukturu yaradılıb, 200-dən çox məktəb binası tikilib və ya yenidən qurulub. Həmçinin ali, orta ixtisas və peşə məktəbləri üçün də yeni binalar istifadəyə verilib, universitet şəhərcikləri salınıb. Təhsil müəssisələrində internetə çıxışı olan 900-ə yaxın elektron lövhə, 7 mindən çox kompüter quraşdırılıb, zəngin fonda malik kitabxanalar, kabinə və laboratoriyalar istifadəyə verilib. 2020-2021-ci tədris ilində də muxtar respublikanın ümumtəhsil məktəblərini bitirən məzunların 261-i imtahanlarda yüksək nəticə göstərərək 500-700 arası bal toplayıb. Bütün bunlar isə muxtar respublikanın aparıcı mətbuat orqanında öz əksini tapıb.

“Şərq qapısı” qəzetinin 2021-ci il 10 sentyabr tarixli nömrəsindən oxuyuruq ki, Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış məzunlarla görüşü zamanı Ali Məclisin Sədri gənclərə öz tövsiyəsini vermişdir: ***“Təhsildə əsas hədəf qazanılan bilik və bacarıqları iqtisadi amilə çevirməkdir. Bu isə yaxşı mütəxəssis hazırlığından başlayır... Çalışın qazandığınız bilikləri praktikada tətbiq edərək ölkəmizə fayda verəsiniz. Bir sözlə, seçdiyiniz peşəni dərindən öyrənməklə yanaşı, həm də geniş dünyagörüşünə malik olmalı, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacarmalı, dəyərlərinə və tarixinə sahib çıxan, mütərəqqi təfəkkürlü kadrlar kimi yetişməlisiniz”.***

*Bu il 100 yaşı tamam olan, muxtar respublikamızın güzgüsü sayılan “Şərq qapısı” qəzetinin 1991-2021-ci illəri əhatə edən səhifələrini vərəqləyərkən bir daha şahidi olduq ki, ümummilli liderimizin yolunu layiqli şəkildə, böyük iradə və əzmlə davam etdirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun uzaqgörənliyi və müdrikliyi sayəsində muxtar respublikamızda təhsil sahəsində çox böyük işlər görülüb, bu sahə inkişafının ən yüksək zirvəsinə çatıb.*

**Güntac ŞAHMƏMMƏDLİ**

***Məqalə “Şərq qapısı” qəzetinin 100 illiyi münasibətilə keçirilən yaradıcılıq müsabiqəsinə təqdim edilir.***

## Sosial Könüllülük Akademiyasına yeni qəbul olunan və Akademiyadan məzun olan könüllülərin təlim düşərgəsi

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Gənclər Fondunun birgə təşkilatçılığı ilə Ağbulaq İstirahət Mərkəzində keçirilən “Sosial könüllülərin təlim düşərgəsi” başa çatıb.***

Üç gün davam edən düşərgənin ilk günündə iştirakçıların Ağbulaq İstirahət Mərkəzi ilə tanışlığı təmin edilib, təbiət gəzintisi təşkil olunub. Günün ikinci yarısında isə gənclərə “Sosial könüllülük” haqqında təlim keçirilib. Günün sonunda könüllülər müxtəlif intellektual və əyləncəli oyunlarda iştirak edib, filmə baxıblar.



Düşərgənin ikinci günündə könüllülər psixoloji və “yoqa” təlimlərinə cəlb olunublar. Günün ikinci yarısında isə sosial könüllülərlə görüş keçirilib, məzunlara sertifikatlar təqdim olunub. Tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev bildirib ki, ölkədə ilk dəfə olaraq muxtar respublikada yaradılmış sosial könüllülük hərəkatının əsas aparıcı qüvvəsi gənclər hesab olunur. Bu layihə də əksəriyyəti Sosial iş ixtisası üzrə təhsil alan tələbələr olmaqla, könüllü gənclərin iştirakı ilə formalaşdırılıb və hazırda uğurla icra olunmaqdadır. Qeyd edilib ki, layihənin ilk günlərindən sosial könüllülər xüsusi qayğıya ehtiyacı olan şəxslərlə bağlı keçirilən tədbirlərdə həvəslə və yüksək əzmlə iştirak edirlər. Ötən dövr ərzində sosial könüllülər nazirliyin fəaliyyət istiqamətləri üzrə 100-ə yaxın tədbirdə iştirak edib, tənha ahıllara, sağlamlıq imkanları məhdud şəxslərə göstərilən xidmətlərdə fəallıq göstəriblər.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev çıxışında qeyd edib ki, belə tədbirlər gənclərə könüllülük dəyərlərinin aşılanması və onların bu istiqamətdə formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Çıxış edənlər gənclərə, o cümlədən sosial qayğıya ehtiyacı olan şəxslərə göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildiriblər. Sertifikatlar və hədiyyələrin təqdimatından sonra tədbirin rəsmi hissəsi başa çatıb. Görüş çay süfrəsi ətrafında davam etdirilib, sosial könüllülərin sual və təklifləri dinlənilib, qarşılıqlı müzakirələr aparılıb.

Üçüncü günün davamında sosial könüllülərin qonağı istedadlı sağlamlıq imkanları məhdud gənc Nail Nəvai olub. O, könüllülərə motivasiya əhəmiyyətli təlim keçib, bu istiqamətdə onları maraqlandıran sualları cavablandırıb. Günün sonuncu təlimi isə debat formasında təşkil olunub.

“Sosial könüllülər düşərgəsi”nin sonuncu günü də iştirakçılar üçün yaddaqalan olub. Həmin gün düşərgə iştirakçıları istirahət mərkəzində yaradılan şəraitdən faydalanıb, asudə vaxtlarını əyləncəli təşkil ediblər. Könüllülər kanat gəzintisi vasitəsilə təbiət gözəlliklərinə tamaşa ediblər. Günün ikinci yarısında isə düşərgə iştirakçıları Naxçıvan şəhərinə yola düşüblər.

Sosial könüllülər yaradılan şəraitə görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası***
***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Valideynlərin ən böyük arzusu sağlam övladlar yetişdirməkdir. Ancaq bəzən uşaqlarda fiziki qüsurların olması valideynləri məyus edir.*

*Mütəxəssis sözü*

## Övladlarımızın normal inkişafını dəyərləndirək

Qeyd edək ki, bu gün muxtar respublikamızda hərtərəfli qayğı ilə əhatə olunan uşaqların müayinə və müalicəsi prioritet vəzifələr sırasındadır. Naxçıvan şəhərində, rayonlarımızda fəaliyyət göstərən uşaq xəstəxanaları, Naxçıvan Uşaq Bərpa Mərkəzi, mərkəzin defektoloji bölmələri fiziki məhdudiyyəti olan uşaqların sağlamlığının bərpa edilməsi üçün hərtərəfli şəraitə malikdir. Adıçəkilən səhiyyə müəssisələrinə müraciət etməklə mövcud xəstəliklərin aradan qaldırılması mümkündür. Belə qüsurlar sırasında uşaqların boylarının qısa və ya daha uzun olması da var. Bəzi uşaqların qısa və ya uzunboylu olması onlara valideynlərindən irsən keçib. Onlar boy artımına görə fiziki inkişafdan geri qalırlar. Buna səbəb uşaqların normal boy, çəki, cinsi yetişkənlik və ya digər xüsusiyyətlərin inkişafına mane olan amillərdir.

Çox zəif və ya çox sürətli böyümə endokrin vəzilərində problemlərin olması ilə əlaqədardır. Məlumat üçün bildirək ki, hipofiz vəzi sümük və digər toxumaların böyüməsini stimullaşdıran Growth Hormon (GH) boy hormonu ifraz edir. Uşaqlarda bu hormon normadan azdırsa, belə uşaqlar çox balaca ola və boy hormonu ilə müalicə alaraq böyüməni tənzimləyə bilər. İnsanlarda, həmçinin boy hormonu həddindən artıq çox da ola bilər. Bunun səbəbi, adətən, hipofiz vəzinin şişdir ki, bu, xərçəng hesab edilmir. Boy hormonu həddən artıq çox olduqda uşaqlarda qiqantizmə gətirib çıxara bilər ki, bu zaman onların sümükləri və bədəni çox sürətlə böyüyür. Ahıl yaşlı insanlarda isə bu akromeqaliyaya səbəb ola bilər ki, bu zaman əlləri, ayaqları, üz nahiyəsi normadan artıq böyüməyə başlayır. Bu zaman hökmən müayinələr üçün həkimə müraciət etmək lazımdır.

Həkimlər uşaqların boy və çəkisinin normal olub-olmadığını, düzgün inkişaf edib-etmədiyini və ya böyüməyə təsir edən hər hansı bir problemi müəyyən etmək üçün boy qrafikindən istifadə edirlər. Boy qrafiki uşağımızın standart müayinələrinin bir hissəsidir. Qrafiklər uşağın digər həmyaşıdları ilə müqayisədə necə böyüdüyünü göstərir.

Deyək ki, uşaq 2 yaşa qədər sxemə uyğun olaraq böyüyüb. Müəyyən müddətdən sonra digər uşaqlara görə daha az böyüməyə başlayır. Bu uşağın sağlamlığında problemin olduğunu həkimlər böyümə cədvəlinə baxaraq müəyyən edirlər. Həkimlər boy qrafiki ilə birlikdə uşağın ümumi rifahına, onu əhatə edən ətraf mühitə və genetik faktorlara da diqqət etməli olurlar.

Bu faktorlar içərisində uşaq inkişafının sonrakı mərhələsində bütün göstəricilər yerindədirmi, uşağın sağlam olmadığını göstərən başqa əlamətlər varmı, uşaq vaxtında doğulubmu, uşaqda cinsi yetişkənlik dövrü erkən, ya gec başlayıb və sair halları göstərmək olar.

Ancaq bütün uşaqların bir qrafiklə ölçülməsi düzgün deyil. Oğlanlar və qızlar müxtəlif boy diaqramı ilə ölçülür, çünki onlar fərqli və müxtəlif sürətlə inkişaf edirlər. Bundan başqa, doğulduqdan 36 aya qədər bir cədvəl dəstindən, 2 yaşdan 20 yaşına qədər digər cədvəldən istifadə olunur. Daun sindromlu uşaqlarda və ya erkən doğulan uşaqlar üçün xüsusi böyümə cədvəllərindən istifadə edilir.

Həkimlər bir uşağın çəkisini və boyunu cədvəl üzərində tərtib etdikdə bu ölçülərin hansı yüzdəlik xəttə düşdüyünü görürlər. Normativin yüksək və ya aşağı faiz göstəricisi uşağın daha sağlam və ya boy, çəki probleminə malik olduğu anlamına gəlmir.Tutaq ki, çəkiyə görə cədvəldə duran 4 yaşlı oğlan uşağı boy baxımından 10-cu faizdədir. Beləliklə, persentil cədvəldə 10 faizdə durarsa, boy qısa, çəki aşağı olacaq. Valideynləri, qardaş və bacıları da ortalamadan kiçikdirsə, sağlam və yaxşı inkişaf etdiyini göstərən digər əlamətlər varsa, həkimlər çox güman ki, narahatlığa heç bir səbəb olmadığına qərar verəcəklər. Əgər 90 faizə uyğundursa, bu, uşaq boy və çəkisinin normadan artıq olduğunun göstəricisidir.

Beləliklə,uşaq üçün ideal faiz göstəricisi fərdi xarakter daşıyır. Sağlam uşaqlar müxtəlif forma və ölçülərdə ola və 5 faizi göstərən uşaq 95 faizdə olan uşaqla eyni şəkildə sağlam ola bilər.

Sonda onu da qeyd edək ki, muxtar respublikamızda gələcək nəslin sağlamlığının qorunması və bərpası, sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası, onların müayinə və müalicəsi üçün hərtərəfli şərait yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2021-ci il mart ayının 15-də “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncam imzalaması bu proqramın icrası istiqamətində səhiyyə işçilərinin qarşısına mühüm vəzifələr qoymuşdur. Uşaqların əqli və fiziki inkişafdan qalmasının, sağlamlıq imkanları məhdudluğunun erkən yaşlarda aşkarlanması və qarşısının alınması üçün muxtar respublikamızda kifayət qədər müasir səhiyyə xidməti, tibbi personal formalaşdırılmışdır. Bu isə səhiyyə işçilərindən gələcəyimiz olan uşaqların sağlamlığı keşiyində daha ayıqsayıq dayanmaq tələb edir. Bunun üçün tibbi profilaktika, müayinə və müalicə işləri daha düzgün və vaxtında aparılmalıdır. Bu işdə ən yaxın köməkçimiz isə valideynlər olmalı, onlar övladlarının sağlamlıqları ilə bağlı hər hansı problemi vaxtında aşkarlayaraq tibb mütəxəssislərinə müraciət etməli, uşaqlarının müalicəsi ilə müntəzəm məşğul olmalıdırlar. Unutmayaq ki, hər sağlam övlad bizim cəmiyyətə bəxş edəcəyimiz yararlı vətəndaş deməkdir.

**Güllü SƏFƏROVA**
***Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin müəllimi***

## Standartlara uyğun olmayan elektrik və qaz cihazlarının idxalı yolverilməzdir

*Muxtar respublikamızda əhalinin standartlara uyğun olan qızdırıcı elektrik və qaz cihazları ilə təmin olunmasına və bu sarıdan təhlükəsizlik tədbirlərinin görülməsinə xüsusi diqqət yetirilir. Hər il muxtar respublikada payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirələrdə bu istiqamətdə aidiyyəti qurumların üzərinə konkret vəzifələr qoyulur. Avqust ayının 28-də keçirilmiş analoji müşavirədə verilmiş tapşırığa uyğun olaraq Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi və aidiyyəti dövlət orqanları tərəfindən standartlara uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya idxalına, satışına və istismarına yol verilmir. Bu istiqamətdə görülən qabaqlayıcı tədbirlər əhali rahatlığının və təhlükəsiz həyatın təmin olunmasına xidmət edir.*



Müşavirədən ötən dövr ərzində gömrük orqanları tərəfindən standartlara uyğun olmayan 38 qaz pilətəsi, 3 qaz sobası saxlanılıb. Xaricdən gətirilən 2174 qaz sobası, 1479 qazla işləyən suqızdırıcı, 466 qaz pilətəsi isə standartlara uyğun olduğundan buraxılıb. Tədbirlər planına əsasən Fövqəladə Hallar Nazirliyi və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti ilə birgə Naxçıvan şəhəri və muxtar respublikanın rayonlarında 142 ticarət obyektinə baxış keçirilib, standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazları aşkarlanmayıb.

Qeyd edək ki, “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən vətəndaşların həyatı, sağlamlığı və əmlakı, ətraf mühitin mühafizəsi üçün təhlükəsizlik tələblərinin müəyyən edildiyi mallar məcburi sertifikasiyadan keçməlidir. Uyğunluğu təsdiq edən sertifikat olmadıqda həmin malları ölkə ərazisində satmaq və istifadə etmək qadağandır. Müvafiq səlahiyyətli orqan, yəni Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən verilmiş və ya tanınmış uyğunluq sertifikatı belə malların ölkə ərazisinə idxal edilməsinə gömrük orqanları tərəfindən icazə verilməsi üçün əsasdır.

Standartlara uyğunluğu müvafiq dövlət orqanı tərəfindən təsdiqlənməmiş qızdırıcı elektrik və qaz cihazlarının idxalına icazə verilməməsi məhz istehlakçıların hüquqlarının müdafiəsi üzrə dövlət siyasətinin tərkib hissəsidir. Çünki qanunvericilik uyğunluq sertifikatı təqdim olunmadan təhlükəsizliyi təmin edilməli olan malların dövlət sərhədindən buraxılış məntəqələrindən keçirilməsinə yol vermir. Bununla bağlı kütləvi informasiya vasitələrindən, komitənin internet resurslarından və sərhəd-buraxılış məntəqələrində quraşdırılmış elektron köşklərdən istifadə olunmaqla xarici iqtisadi fəaliyyət iştirakçıları və fiziki şəxslərə qanunvericiliyin tələbləri izah edilir. Uyğunluq sertifikatı olmadan idxal edilən qızdırıcı elektrik və qaz cihazları gömrük orqanları tərəfindən saxlanılır. Gətirilən qaz cihazlarının, o cümlədən sobaların təhlükəsizlik sistemi yoxlanılır və müsbət rəy verildikdən sonra buraxılışına icazə verilir. Fiziki şəxslər tərəfindən xaricdən gətirilən qızdırıcı elektrik və qaz cihazlarının standartlara uyğunluğuna da nəzarət olunur.

Muxtar respublikada məskunlaşma səviyyəsinin ilbəil artması, əhalinin böyük əksəriyyətinin kəndlərdə yaşaması fərdi yaşayış evlərində qazla işləyən cihazlara tələbatı artırmaqla yanaşı, onlardan istifadə zamanı təhlükəsizliyin təmin olunmasını da aktual edir. Çünki mavi yanacaq nə qədər sərfəli və rahat olsa da, təhlükəsizlik təmin olunmadıqda bədbəxt hadisələr qaçılmaz olur. Sevindirici haldır ki, həyata keçirilən məqsədyönlü və qabaqlayıcı tədbirlər nəticəsində Naxçıvan Muxtar Respublikasında rahat və təhlükəsiz həyat təmin olunur.

Yeri gəlmişkən, qeyd edək ki, standarta uyğun sobalarda dəm qazının miqdarı həyat üçün təhlükəli olanda qazın sobaya girişini avtomatik olaraq dayandıran xüsusi qurğu olur. Üstəlik, hər hansısa bir səbəbdən qaz nəqli dayandıqda ehtimal olunan təhlükələrin qarşısının alınması üçün sobalar avtomatik qaz kranı, yəni qaz requlyatoru ilə təchiz edilir.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi bir daha diqqətə çatdırır ki, təhlükəsizliyin təmin edilməsi və istehlakçıların hüquqlarının müdafiəsi üzrə dövlət siyasətinin həyata keçirilməsi məqsədilə standartlara uyğun olmayan elektrik və qaz cihazları muxtar respublikaya buraxılmır. Xaricdən gətirilən bu tip cihazların buraxılışına Naxçıvan Muxtar Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən yoxlamadan keçirildikdən sonra icazə verilir. Gömrük orqanları standartlara uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının idxalına yol verilməməsi, muxtar respublikamızda rahat və təhlükəsiz həyatın təmin olunması istiqamətində tədbirləri bundan sonra da davam etdirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Gömrük Komitəsinin***
***mətbuat xidməti***

### İtmişdir

Culfa şəhəri, M.S.Ordubadi küçəsi, 5a ünvanında yaşayan Ağayev Yavər Müzəffər oğlunun adına verilən texniki pasport itdiyindən etibarsız sayılır.

***

Rəsulov Baxşəli Həşim oğlunun adına olan 258 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 903